

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti** *1933-cü ildən nəşr olunur*

**№ 60-61 (7297-7298)** ✵ **Bazar ertəsi, 31 avqust 2015-ci il** ✵ **Qəzet ayda 4 dəfə çıxır** ✵ **Qiyməti 40 qəpik**




***Qəbələ Azərbaycanın qədim torpağıdır, qədim diyardır. Hələ eramızdan əvvəl müxtəlif yazılı mənbələrdə Qəbələnin adı çəkilir. Dünya tarixində Qəbələnin özünəməxsus yeri vardır. Bu, bizim böyük sərvətimizdir. Biz öz tarixi irsimizə həmişə böyük hörmət və diqqətlə yanaşmalıyıq. Bu baxımdan, Azərbaycan tarixində, Azərbaycanın keçmişində və bu günündə Qəbələnin rolu çox mühüm və önəmlidir.***

**İlham ƏLİYEV.**
**Azərbaycan Respublikasının Prezidenti.**

## Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin II hissəsini və 109-cu maddəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər 2015-ci il noyabrın 1-nə təyin edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 28 avqust 2015-ci il.*

### 1 noyabr — Milli Məclisə seçkilər günüdür

## Əldə olunan möhtəşəm yüksəliş növbəti parlament seçkilərində də öz əksini tapacaqdır

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin 28 avqust 2015-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Milli Məclisinə seçkilər bu ilin noyabr ayının birinə təyin edilmişdir. Düz iki ay sonra xalqımız ölkəmizin siyasi həyatında mühüm rol oynayan, öz demokratikliyi və fəallığı ilə dünya parlamentləri arasında sayılıb seçilən Azərbaycan Respublikası Parlamentinə növbəti seçkilərdə iştirak edəcək. Xalqın hörmət və nüfuzunu qazanmış oğul və qızlarını ali qanunverici orqana seçəcək.

Seçkilər hər bir ölkənin həyatında mühüm siyasi hadisə olduğu qədər həm də iqtidarda olan siyasi elitanın xalq qarşısında hesabatı və imtahanıdır.

Tarixi təcrübə göstərir ki, hər bir dövlətin mütərəqqi inkişafı müxtəlif amillərlə yanaşı həm də demokratik seçkilərdən asılıdır. Fərəhli haldır ki, müstəqillik dövründə dünyanın demokratik dəyərlərini tam mənimsəyən Azərbaycan Respublikasında seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi ənənəsi formalaşıb. Bu ənənənin müəllifi xalqımızın ulu öndəri Heydər Əliyevdir. Heydər Əliyevin zəhməti sayəsində 1993-cü ildən etibarən respublikamızda demokratik seçkilərin keçirilməsi üçün son dərəcə zəruri sayılan ictimai-siyasi sabitlik təmin edilib, Azərbaycanın demokratik dünyaya inteqrasiyasının əsası qoyulub, o cümlədən beynəlxalq təcrübəyə söykənən mütərəqqi, hüquqi seçki qanunvericiliyi bazası yaradılıb.

Azərbaycan müstəqil bir dövlət kimi sözün əsl mənasında müstəqil olduğunu, öz siyasətini xarici diktələrin təsiri altında qurmadığını çoxdan təsdiq edib. Son illərdə qazanılmış tarixi nailiyyətlərimiz, insanlarımızın gündən-günə yaxşılaşan rifah halı və üzərimizə yönələn hər cür xarici təhdidlər qarşısındakı dövlətçilik əzməti Azərbaycanın sözdə yox, əməldə özünü göstərən müstəqilliyinin təsdiqidir.

Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməklə respublikamızı dinamik inkişaf yoluna çıxaran Prezident İlham Əliyev həyata keçirdiyi siyasi xətlə cəmiyyətimizdə demokratik ənənələri daha da möhkəmləndirib. Bunun bariz göstəricilərindən biri seçkilərin azad və şəffaf keçirilməsi üçün seçki sisteminin daha da təkmilləşidirilməsi istiqamətində mühüm işlərin həyata keçirilməsi, səsvermə günü seçki məntəqələrində veb-kameraların quraşdırılması, bütün dairə seçki komissiyalarının yeni inzibati binalarla və müasir zəruri texniki vasitələrlə təmin olunması, seçki qanunvericiliyinin daha da təkmilləşdirilməsidir. Xatırladaq ki, Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanda 5 prezident, 4 parlament və 4 bələdiyyə seçkisi keçirilib. Bütün bu seçkilərə dair beynəlxalq təşkilatların verdikləri müsbət rəylər onu təsdiq edir ki, Azərbaycanda seçkilərdən-seçkilərə vətəndaşların siyasi şüuru, seçki mədəniyyəti daha da yüksəlib.

Ölkəmizdə 1993-cü ildən bəri həyata keçirilən siyasət nəticəsində əldə olunan möhtəşəm yüksəliş növbəti parlament seçkilərinində də xalqın yüksək fəallığı şəraitində keçəcəyinə zəmin yaratmışdır.

## 7 ay ərzində sənayenin emal bölməsində 4,5 milyard manatlıq məhsul buraxılıb

Dövlət Statistika Komitəsinin cari ilin yanvar-iyul ayları üzrə yaydığı məlumatda bildirilir ki, həmin müddət ərzində Azərbaycan sənayesində istehsal edilən malların və göstərilən xidmətlərin həcmi 3,5 faiz artaraq 15,8 milyard manatlıq olmuşdur. Sənayenin qeyri-neft bölməsində əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,7 faiz artım qeydə alınmışdır. Bu müddət ərzində sənaye məhsulunun 63,8 faizi mədənçıxarma, 28,5 faizi emal, 6,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində istehsal edilmişdir. Özəl bölmədə istehsalın həcmi 76,7 faizə çatmışdır.

Cari ilin birinci yarısında ölkənin sənaye sahələrində çalışan muzdlu işçilərin sayı 183,5 min nəfər olmuş, onların orta aylıq əməkhaqqı 11,1 faiz artaraq 783 manat təşkil etmişdir. Qeyri-dövlət bölməsində çalışan işçilərin orta aylıq əməkhaqqı isə daha çox 15,1 faiz artaraq 988,2 manata çatmışdır.